# ƏMİROV FAİQ İSBƏNDİYAR OĞLU



Əmirov Faiq İsbəndiyar oğlu 22 iyun 1975-ci ildə Zaqatala rayonunun Bəhmədli kəndində doğulmuşdur. 1992-ci ildə doğma kəndlərində orta məktəbi bitirmişdir. Bir müddət təsərrüfat işləri ilə məşğul olmuşdur. 2 iyul 1993-cü ildə Zaqatala rayon Hərbi Komissarlığı tərəfindən ordu sıralarına çağırılmışdır. O, 776 saylı xüsusitəyinatlı hərbi hissədə xidmət edirdi. F.Əmirov Füzuli, Tərtər, Ağdərə uğrunda gedən qanlı döyüşlərdə iştirak edir. Qızğın döyüşlərin birində ayağından yaralanır. O, hospitalda müalicə olunub, yenidən döyüş bölgəsinə qayıdır. Cəbhədə atəşkəs elan edildikdən sonra onların batalyonu öz əvvəlki yerinə qaytarılır. 17 mart 1995-ci ildə onun xidmət etdiyi batalyon da dövlət çevrilişinə cəhdin qarşısının alınmasında iştirak edir. Dövlətçiliyimizin qorunması yolunda canından keçənlərdən biri də Əmirov Faiq olmuşdur. Bəhmədli kənd qəbirstanlığında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə sıravi Əmirov Faiq İsbəndiyar oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Zaqatala şəhərindəki küçələrdən biri indi onun adını daşıyır.

.